AZƏRBAYCANDA İNSAN HÜQUQLARI VƏ VƏTƏNDAŞ FƏALLIĞININ QAVRANILMASI

ZÜLFIYYƏ ƏBDÜRƏHIMOVA-KARBERRININ TƏHLILI.
RIWI ILƏ ƏMƏKDAŞLIQLA

May 2021

AZƏRBAYCANDA İNSAN HÜQUQLARI VƏ VƏTƏNDAŞ FƏALLIĞININ QAVRANILMASI[1]

ZÜLFIYYƏ ƏBDÜRƏHIMOVA-KARBERRININ TƏHLILI. RIWI ILƏ ƏMƏKDAŞLIQLA

1 Bu araşdırma Zülfiyyə Əbdürrəhimova-Karberri tərəfindən RIWI ilə əməkdaşlıqla aparılmışdır. Hesabatın əslini buradan oxuya bilərsiniz: https://riwi.com/wp-content/uploads/2021/08/Perceptions-of-Human-Rights-and-Civic-Activism-in-Azerbaijan_revised-v2-1.pdf

QISA XÜLASƏ

2021-ci ilin yanvarında qlobal trend izləmə və proqnozlaşdırma texnologiyası şirkəti olan RIWI ilə əməkdaşlıqla Azərbaycanda internet vasitəsilə ictimai sorğu keçirmişik. 18 gün ərzində bütün suallara cavab verən 1575 sorğu əldə etmişik. Sorğu Azərbaycanda insan hüquqları və vətəndaş iştirakçılığı ilə bağlı müxtəlif suallardan və iki demoqrafik sualdan ibarət olub: yaş və cins.

Əsas nəticələr

- ***Müharibə sonrası optimizm***
  Ölkənin düzgün və ya yanlış istiqamətdə getdiyini soruşduqda iştirakçıların 79%-i düzgün, yalnız 21%-i yanlış istiqamətə getdiyini seçib.
- ***İnsan hüquqlarının qorunması haqqında pozitiv təəssürat***
  İştirakçıların 74%-i insan hüquqlarını adekvat şəkildə qoruyan qanunların olduğunu, 78%-i isə onların insan haqlarının qorunduğunu deyib.
- ***İştirakçılar üçün ən vacib insan hüquqları***
  "Aşağıdakı insan hüquqlarından hansı sizin üçün ən vacibidir?" sualında ilk üç yüksək faizli seçim *söz azadlığı* (24%), *düşüncə (din) azadlığı* (18%) və *ədalətli mühakimə* (15%) olub.
- ***İştirakçılar arasında populyar olmayan insan hüququ***
  İştirakçıların yalnız 7%-i *etiraz* hüququnu ən vacib hüquq olaraq seçib.
- ***Qadınların, gənclərin və cinsi azlıqların (LGBT)[2] hüquqları daha çox pozulur***
  "Ən çox hansı qrupların insan hüquqları pozulur?" sualına ən yüksək faizli cavablar qadınlar (19%), gənclər (15%) və LGBT (11%) olub.
- ***Qadınlar üçün bərabər hüquqlara böyük dəstək***
  Bütün iştirakçıların 80%-i qadın və kişilərin iş yerində bərabər hüquqlara sahib olmalı olduqlarına inandıqlarını (razıyam və tamamilə razıyam) deyib.
- ***Polis tərəfindən şiddət/zor tətbiq edilməsinə müsbət münasibət***
  İştirakçıların 57%-i şübhəli şəxs qismində saxlanılanlara, 66%-i terrorçulara, 46%-i etirazçılara və 47%-i isə müharibə əsirlərinə qarşı polis/ordu zabitlərinin güc tətbiq etməsinin qəbuledilən olduğunu qeyd edib.
- ***Ənənəvi ədliyyə institutlarına inamsızlıq***
  İştirakçıların yalnız 19%-i vəkillərə, 16%-i isə məhkəmələrə etibar edir.
- ***Alternativ informasiyaya çıxış***
  İştirakçıların 50%-i əsas məlumatlarını sosial mediadan əldə etdiklərini bildiriblər.

2 Lezbiyan, gey, biseksual və transgenderlər.

HESABATIN MƏZMUNU

1. GIRIŞ 5

2. METODOLOGIYA VƏ MƏHDUDIYYƏTLƏR 7

3. MÜHARIBƏDƏN SONRAKI KONTEKSTDƏ INSAN HÜQUQLARI VƏ VƏTƏNDAŞ FƏALLIĞININ QAVRANILMASI 8

İnsan hüquqlarının qorunması haqqında pozitiv təəssürat 8

İştirakçıların əsas seçimləri: *söz azadlığı*, *düşüncə azadlığı* və *ədalətli mühakimə* 9

***Etiraz* hüququ - populyar olmayan insan hüququ** 9

İştirakçıların seçimlərində Sovet irsi 9

Hüquqları ən çox pozulan qruplar: qadınlar, gənclər və LGBT 10

Qadınların kişilərlə bərabər hüquqlara malik olmasına böyük dəstək 10

İnsan hüquqları barədə məlumatlılıq: Polis tərəfindən şübhəli şəxs qismində saxlanılanlara, terrorçulara, aksiya iştirakçılarına və müharibə əsirlərinə qarşı zorakılıq tətbiq olunmasına münasibət 11

Ənənəvi ədliyyə institutlarına inamsızlıq 12

Alternativ informasiyaya çıxış 13

İfadə və düşüncə azadlığı 13

Vətəndaş fəallığı 14

NƏTICƏ 16

MÜƏLLIF HAQQINDA 17

1. GIRIŞ

2002-ci ildən etibarən Azərbaycanın demokratiya şkalası üzrə balı davamlı olaraq pisləşib.[3] 2019-cu ildə *The Economist*in apardığı demokratiyanın qiymətləndirilməsi reytinqinə əsasən Azərbaycan 167 ölkənin olduğu siyahıda 146-cı sırada, Birləşmiş Ərəb Əmirlikləri ilə Sudanın arasında olub.[4] *Freedom House* Azərbaycanı avtoritar və ya azad olmayan ölkə,[5] *The Economist* isə diktatura kimi dəyərləndirib.[6] Sözügedən rejimin fəaliyyətini ölçmək üçün istifadə olunan göstəricilərdən asılı olmayaraq, Azərbaycan birmənalı şəkildə kök salmış avtoritar rejimdir. Hakimiyyət Prezident İlham Əliyev və onun yaxın çevrəsinin əlində həddindən artıq mərkəzləşib, siyasi hüquqlar və vətəndaş azadlıqları ciddi şəkildə məhdudlaşdırılıb.

Cəmiyyət və ya təşkilat yaratma azadlığı müxtəlif vasitələrlə məhdudlaşdırılıb. Müxalif siyasətçilər, bloqçular, jurnalistlər və fəallar əsassız həbs olunur, zorakılıq və hədə-qorxuya məruz qalırlar. Qadınlar və (milli və cinsi) azlıqlar üçün təşkilatlanmaq və öz maraqlarını müdafiə etmək üçün, demək olar ki, heç bir mexanizm yoxdur. 2019-cu ilin yazından etibarən hökumət Bakının mərkəzində mitinqlərə icazə verməyi dayandırmaqla qadağan edilmiş etiraz aksiyalarının təşkilini, demək olar ki, qeyri-mümkün edib. Hər hansı bir icazəsiz mitinq polis tərəfindən şiddətli təzyiqə məruz qalır.[7]

Əsasən vətəndaşları onlayn izləmək, internetə çıxışı bahalı etmək və rəsmilərin mənafelərinə təhlükəli hesab etdikləri saytları bloklamaqla ifadə azadlığı və alternativ məlumata çıxış məhdudlaşdırılıb. Hüquq-mühafizə orqanları siyasətçilərin, xarici vətəndaşların və jurnalistlərin, aktivistlər və bloqçular da daxil olmaqla müxalif fərdlərin şəxsi və ictimai kommunikasiyasını izləyir. Məsələn, hökumətyönümlü Real TV müxalif siyasətçi Gültəkin Hacıyeva ilə ABŞ diplomatı arasında olan şəxsi telefon danışığının və birinci ilə Avropa Birliyi diplomatı arasında başqa bir şəxsi telefon danışığının səs yazılarını yayıb.[8]

Aktivistlərin, jurnalistlərin və müxalif fərdlərin saysız məhkəmə işləri göstərib ki, ədliyyə sistemi korrupsionerdir və müstəqil deyil. Qanun qarşısında qadınlar və kişilər eyni hüquqlara malikdir,[9] lakin ailədaxili zorakılıq hələ də yetərli hüquqi tənzimlənməsi olmayan geniş yayılmış bir problemdir.[10] Ölkənin böyük bir hissəsinin internetə çıxışı var (78,8%),[11] buna baxmayaraq internet istifadəçilərinin əsasən şəhərlərdə yaşayan daha gənc və imkanlı insanlar olması ehtimalı daha yüksəkdir. Baxmayaraq ki, internetdə müxalif fikirlər səsləndirmək təqibə səbəb ola bilər, *Feysbuk* və *Yutub* narazılığını bildirmək və alternativ məlumat yaymaq üçün populyar platformalardır. Sosial media paylaşımlarına görə vətəndaşlara güc strukturları tərəfindən təzyiqlər 2020-ci ilin ən çox nəzərə çarpan trendlərindən biri olub. Məsələn, Toplum TV onlayn xəbər saytının müxbiri Əminə Məmmədova ölkədə COVID-19-un vəziyyəti ilə bağlı etdiyi feysbuk paylaşımına görə sorğu-sual olunub və ona yazını silməyi tapşırıblar. Azərbaycan Demokratiya və Rifah Hərəkatının üzvü Şakir Məmmədov hökumətin pandemiyaya reaksiyasını tənqid edən feysbuk paylaşımını silməkdən imtina etdiyi üçün 15 sutka həbs edilib.[12]

Bütün bu reallıqların fonunda 2020-ci ilin iyulunda Azərbaycan və Ermənistan arasında Dağlıq Qarabağ münaqişəsi ətrafındakı gərginlik yenidən artmağa başladı. 2020-ci ilin 27 sentyabr - 10 noyabr tarixində

3 "Nations in Transition 2011 Azerbaijan," 83.
4 "Democracy Index 2020. In Sickness and in Health?" 13.
5 "Azerbaijan: Freedom in the World 2020 Country Report."
6 "Democracy Index 2020. In Sickness and in Health?" 32.
7 "Azerbaijan: Freedom in the World 2020 Country Report."
8 *Yenə orada.*
9 Əmək hüququndakı bir neçə məhdudiyyəti çıxmaq şərti ilə.
10 "Azerbaijan: Freedom in the World 2020. Country Report."
11 https://www.internetworldstats.com/asia/az.htm Mundi indeksinə əsasən, internet istifadəçisi dedikdə "bir ölkədə istənilən cihazla (kompüter və ya mobil) internetə evindən girişi olan fərdlərin toplam sayı" nəzərdə tutulur. Bax: https://www.indexmundi.com/azerbaijan/internet_users.html#:~:text=percent%20of%20population%3A%2079.8%25%20(,computer%20or%20mobile)%20and%20connection.
12 "Azerbaijan: Freedom on the Net 2020. Country Report."

hökumət milli təhlükəsizliyi səbəb göstərərək, internetə çıxışı ciddi şəkildə məhdudlaşdırdı. Qoyulmuş məhdudiyyətə baxmayaraq, sosial şəbəkələrdə əsgər ailələrinə, müharibə bölgəsinə yaxın ərazidə yaşayan vətəndaşlara və cəbhədəki əsgərlərə kömək etmək üçün vətəndaş iştirakında bir canlanma müşahidə edilirdi. Bu dəstək həmin ailələrin ərzaq məhsulları və ən vacib məişət ehtiyacları, əsgərlərin paltar, yorğan, içməli su, qəlyanaltı və s. ilə təmin edilməsini əhatə edirdi. Eyni zamanda, pandemiya səbəbindən də vətəndaş aktivliyində bir canlanma vardı. Aktivistlər, bəzi ictimai xadimlər, şirkətlər və sıravi vətəndaşlar pandemiyanın yaratdığı maddi çətinliklərdən əziyyət çəkən ailələrə kömək edirdilər. Ehtiyaclı ailələrə yönəlmiş yardımlar nəzərə çarpacaq dərəcədə artmağa başladı. Belə ki, yardımlar indi həm də internetə çıxışı və ya elektron cihazları olmayan uşaqları, ailə üzvləri olmayan yaşlı insanları, hansısa xəstəliyi olub müalicə üçün pula ehtiyacı olanları və ya onları pulsuz müalicə edəcək həkim axtarışını və s. əhatə edirdi.

Keçirdiyimiz ictimai sorğu müharibə kontekstində və qapalı siyasi mühitdə əhalinin insan haqlarını və vətəndaş iştirakını necə anladığını öyrənmək məqsədi daşıyır. Xüsusilə, əhali insan hüquqlarını necə qavrayır və onlar üçün ən vacib olan hüquq nədir, onlar insan hüquqlarını qoruyan qanunların mövcudluğu ilə bu cür qanunların praktikada tətbiqi arasında uyğunsuzluğun olub-olmadığını düşünürlərmi? Bundan əlavə, əhali üçün vətəndaş iştirakı və ya aktivliyi nə dərəcədə vacibdir və əsasən hansı sahələr onları vətəndaş iştirakına daha çox cəlb edir?

2. METODOLOGIYA VƏ MƏHDUDIYYƏTLƏR

2021-ci ilin yanvarında qlobal trend izləmə və proqnozlaşdırma texnologiyası şirkəti olan RIWI ilə Azərbaycanda internet vasitəsilə ictimai sorğu aparmışıq. 18 gün ərzində tamamilə doldurulmuş 1575 sorğu anketi toplaya bilmişik. Sorğuda iştirak könüllü olub və sorğuda iştiraka sövq etmək üçün heç bir vasitədən istifadə olunmayıb. RIWI-nin patentləşdirilmiş texnologiyası sorğuda iştirak edən şəxslərin tam anonimliyinə zəmanət verir və onların şəxsiyyətini müəyyən edə biləcək heç bir məlumat toplamır. Sorğu Azərbaycanda insan hüquqları və vətəndaş iştirakı ilə bağlı müxtəlif suallardan və iki demoqrafik sualdan ibarət olub: yaş və cins. Gələcək sorğularımızda analizləri daha da yaxşılaşdırmaq üçün demoqrafik suallara məkan (şəhər/kənd) və təhsil suallarını da daxil edəcəyik.

İştirakçılara sorğunu Azərbaycan və ya rus dilində doldurmaq imkanı verilib. Sorğu yalnız çoxsaylı cavab seçimi olan suallardan ibarət olub. Balanslaşdırılmamış[13] dataya baxsaq iştirakçıların 70%-nin 16-34 yaşlarında olduğunu görərik. Əgər datanı ümumi əhali sayı ilə balanslaşdırsaq, bu yaş qrupu əhalinin 39%-ni təşkil edir. Sorğu internet vasitəsilə keçirildiyindən təbiidir və gözləniləndir ki, balanslaşdırılmış data ilə müqayisədə iştirakçıların böyük əksəriyyətini gənc yaş qrupu təşkil edir. Bundan əlavə, RIWI yaşlı iştirakçı qrupun sayının azlığını nəzərə alaraq yaşlı qrup datasını daha çox balanslaşdırır. Balanslaşdırılmamış dataya baxsaq, iştirakçıların 64%-i kişilər, 36%-i isə qadınlardır. Balanslaşdırılmış dataya baxdıqda isə kişi iştirakçılar 49%, qadın iştirakçılar isə 51% təşkil edir. İştirakçıların 82%-i sorğunu Azərbaycan dilində, 18%-i isə rus dilində doldurub.

Neçə yaşınız var? (balanslaşdırılmamış data)



Cinsi mənsubiyyətiniz (balanslaşdırılmış data)

Sorğu iştirakçılardan din, etnik mənsubiyyət, maddi və ya ailə vəziyyəti haqqında heç bir şəxsi informasiya toplamayıb. Hesabatda istifadə olunan faizlər əsasən balanslaşdırılmış, bəzi hallarda isə balanslaşdırılmamış datanı əks etdirir. Qrafiklər məlumatların balanslaşdırılmış və ya balanslaşdırılmamış olduğunu göstərəcəkdir.

13 Balanslaşdırılmamış data əldə olunmuş məlumatın heç bir statistik metod tətbiq edilmədən hesablanmasıdır. Balanslaşdırılmış data isə toplanmış məlumatı elə hesablamaqdır ki, sorğuda iştirak edən qrupun verdiyi cavabların onların aid olduqları daha böyük qrupun (məsələn, bu araşdırmada azərbaycanlıların) düşüncə tərzini əks etdirməsini daha dəqiqliklə demək mümkün olsun (tərc.).

3. MÜHARIBƏDƏN SONRAKI KONTEKSTDƏ INSAN HÜQUQLARI VƏ VƏTƏNDAŞ FƏALLIĞININ QAVRANILMASI

Sorğunun əsas nəticələrindən biri Azərbaycandakı müharibədən sonrakı nikbinlikdir. Ölkənin düzgün və ya yanlış istiqamətə getdiyini soruşduqda iştirakçıların 79%-i düzgün istiqamət, yalnız 21%-i yanlış istiqamət cavabını seçib.[14]

Ümumiyyətlə, ölkəmizin düzgün və ya səhv istiqamətdə irəlilədiyini deyə bilərdiniz?

Digər bir sual, müharibədən sonrakı kontekstdə əhalinin hökumətdən və həmvətənlərindən gözləntilərini öyrənməyə yönəlib. "Şəhid ailələri və qazilərə kömək üçün məsuliyyəti kim daşımalıdır?"[15] sualına sorğuda iştirak edənlərin 49%-i hökuməti (hökumət və rayon icra başçıları) və 10%-i vətəndaşları seçib, digər 41% isə hər üçünün: hökumət, icra başçıları və vətəndaşların bu məsuliyyəti bölüşməli olduğunu göstərib.

Şəhid ailələrinə və veteranlara kömək göstərilməsinə görə kim cavabdehlik daşımalıdır?



49%-i hökuməti (hökumət və rayon icra başçıları)

İnsan hüquqlarının qorunması haqqında pozitiv təəssürat

Sorğu göstərir ki, iştirakçılar arasında ölkədə insan hüquqlarının müdafiəsi haqqında gözlənilməz dərəcədə müsbət təəssürat var. İştirakçıların 74%-i insan hüquqlarını adekvat şəkildə qoruyan qanunların möcudluğunu, 78%-i isə onların öz insan haqlarının faktiki qorunduğunu deyib.[16] Azərbaycanda uzun illər insan hüquqlarının vəziyyətini və hazırda müşahidə olunan problemləri nəzərə alsaq, bu nikbinliyin haradan qaynaqlandığını izah etmək çətindir.

14 "Ümumiyyətlə, ölkəmizin düzgün və ya səhv istiqamətdə irəlilədiyini deyə bilərdiniz?"; Nümunə ölçüsü: 15350.
15 Cavab variantları: "Hökumət", "Regional inzibati orqanlar", "Vətəndaşlar" və "Yuxarıdakıların hamısı"; Nümunə ölçüsü: 1561
16 "Bu fikirlə razısınız və ya razı deyilsiniz: Azərbaycanda mənim insan hüquqlarım qorunur."; Nümunə ölçüsü: 9280.

İştirakçıların əsas seçimləri: *söz azadlığı*, *düşüncə azadlığı* və *ədalətli mühakimə*

"Aşağıdakı insan hüquqlarından hansı sizin üçün ən vacibidir?"[17] sualına ilk üç populyar seçim *söz azadlığı* (24%), *düşüncə (din) azadlığı* (18%) və *ədalətli mühakimə* (15%) olub.[18]

Bu insan hüquqlarından hansı sizin üçün ən əhəmiyyətlisidir?



Etiraz hüququ - populyar olmayan insan hüququ

Yuxarıdakı seçimlər insan haqlarının vacib qollarını əks etdirdiyindən təəccüblü olmasa da, iştirakçıların yalnız 7%-nin *etiraz* variantını ən vacib insan hüququ kimi seçməsi *söz azadlığı* (24%) seçimi ilə müqayisədə cox aşağı göstəricidir. Etiraz hüququna meylin bu qədər zəif olmasının bir neçə izahı ola bilər. İnsanlar narazılıqlarını ifadə etmək azadlığına üstünlük verə, lakin narazılıqlarını ifadə etmək üçün aksiyada iştirakı vacib saymaya və etirazını başqa yollarla ifadə etməyə üstünlük verə bilər. Bu iki seçim (söz və etiraz azadlığı) arasındakı yüksək fərqin digər izahi isə odur ki, polis siyasi və ya qeyri-siyasi olmasından asılı olmayaraq etiraz aksiyalarını sərt şəkildə dağıtdığından etiraz etmək huququ iştirakçılar üçün vacib insan hüququ deyil.

İştirakçıların seçimlərində Sovet irsi

Bu suala cavablarda diqqət çəkən bir demoqrafik məqam bütün yaş qrupları arasında 65 yaşdan yuxarı olanların gənclərə nisbətən *etiraz* hüququna daha cox üstünlük verməsidir. Lakin bu yaş qrupu (65+) arasında etiraz hüququ ən populyar 4-cü seçim olub.[19] Bu nəticəni Sovet irsinin həmin yaş qrupuna təsiri ilə izah etmək olar. Hal-hazırda 65 yaşdan yuxarı olan sorğu iştirakçıları, SSRİ dövründə *perestroyka* və *qlasnost*un yol açdığı kütləvi narazılıqlar ərəfəsində 30 yaşlarında olub. Bu nəsil, 1988-ci ilin noyabrından başlayaraq əvvəlcə gizli yığıncaqlar, daha sonra kütləvi və açıq etiraz nümayişləri təşkil edən və nəticədə hakimiyyətin kommunistlərdən demokratiya tərəfdarı olan qüvvələrə, yəni Azərbaycan Xalq Cəbhəsinə (AXC) keçidinə rəhbərlik edən nəsildir.[20]

Sorğu boyunca bir neçə sualın nəticəsinin digər sualların nəticələrini necə təsdiq etdiyini müşahidə etmək olar. Məsələn, "Aşağıdakı qruplardan ən çox hansı haqlarının pozulmasından əziyyət çəkir"[21] sualına, iştirakçıların 26%-i təklif olunan qrupların heç birinin hüquqlarının pozulmadığını bildirib. Bütün iştirakçıların təxminən ¼-i insan hüquqları pozuntusunun olmadığına inandığını qeyd edir və bu nəticə aşağıdakı iki sualda göstərilən pozitiv yanaşmanı bir daha təsdiqləyir: "Razısınız və ya razı deyilsiniz: Azərbaycanda insan hüquqlarını lazımi dərəcədə qoruyan qanunlar var" və "Razısınız və ya razı deyilsiniz: Azərbaycanda mənim insan hüquqlarım qorunur".

17 Nümunə ölçüsü: 7567
18 Nümunə ölçüsü: 6792
19 Nümunə ölçüsü: 559
20 Daha ətraflı bax: Altstadt, *Frustrated Democracy in Post-Soviet Azerbaijan*, 6–67.
21 Nümunə ölçüsü: 5997

Hüquqları ən çox pozulan qruplar: qadınlar, gənclər və LGBT

"Hansı qrupların insan haqları ən çox pozulur" sualına cavablarda ən yüksək faizli qruplar *qadınlar* (19%), *gənclər* (15%) və *LGBT* (11%) olub.[22] Ən çox insan haqları pozuntusuna məruz qalan qrup olaraq qadınları seçən iştirakçıların 65%-i qadınlar, məhkumları seçənlərin 61%-i və gəncləri seçənlərin isə 59%-i kişilərdir.

Aşağıdakı qruplardan hansı Azərbaycanda insan hüquqlarının pozulmasından ən çox əziyyət çəkir?



Qadınların kişilərlə bərabər hüquqlara malik olmasına böyük dəstək

Sorğuda "Razısınız və ya razı deyilsiniz: İş yerində qadınlar və kişilər bərabər hüquqlara sahib olmalıdırlar"[23] sualı da verilib. Bütün iştirakçıların 80%-i qadın və kişilərin iş yerində bərabər hüquqlara sahib olmalarının tərəfdarı olduqlarını (razıyam və tamamilə razıyam) seçiblər. Kişilərin 23%-i, qadınların 18%-i suala *qətiyyən razı deyiləm* və ya *razı deyiləm* cavab variantlarını seçib.[24]

Razısınız və ya razı deyilsiniz: Qadınlar və kişilər iş yerində bərabər hüquqa malik olmalıdırlar



22 Nümunə ölçüsü: 5997
23 Nümunə ölçüsü: 1619
24 Nümunə ölçüsü: 789 və 830 sıralamaya uyğun olaraq.

İnsan hüquqları barədə məlumatlılıq: Polis tərəfindən şübhəli şəxs qismində saxlanılanlara, terrorçulara, aksiya iştirakçılarına və müharibə əsirlərinə qarşı zorakılıq tətbiq olunmasına münasibət

Sorğu iştirakçılarının əksəriyyəti şübhəli şəxs qismində saxlanılanlara (57%) və terrorçulara (66%) qarşı polisin güc tətbiq etməsinin qəbuledilən olduğuna inanır.[25] Əksinə, hərbi əsirlərə qarşı güc tətbiqi ilə bağlı eyni sual verildikdə güc tətbiqinə dəstək səviyyəsi xeyli aşağı düşərək 47% təşkil edib.[26]

Polis və ya hərbi qulluqçu tərəfindən aşağıdakı qruplara güc/zor tətbiq edilməsi yol veriləndir



"Sizin üçün ən vacib insan hüququ hansıdır?" sualına cavablar polisin etirazçılara güc/şiddət tətbiq etməsinin məqbul olub-olmadığına dair sualın nəticələri ilə üst-üstə düşür. Belə ki, iştirakçıların 46%-i polisin etirazçılara qarşı zorakılıq/güc tətbiq etməsinin qəbuledilən olduğunu bildirib.[27] Bu cür yanaşma "Aşağıdakı insan hüquqlarından hansı sizin üçün ən vacibidir?" sualında iştirakçıların niyə yalnız 7%-nin etiraz hüququnun onlar üçün ən vacib insan hüququ olduğunu seçməsini izah edir.

Xüsusilə təəccüblü olan hərbi əsirlərlə əlaqədar sualın nəticəsidir (47%). Daha geniş kontekstdə yanaşsaq, bu faiz çox aşağıdır. Bu nəticəyə gəlməyimizin iki səbəbi var. Birincisi, müharibənin yenicə baş verməsini və yeni baş vermiş hadisələrin yaddaşda təzəliyindən doğan stereotipləri nəzərə alsaq, iştirakçıların yalnız 47%-nin hərbi əsirlərə qarşı şiddət tətbiq olunmasını dəstəkləməsi gözlədiyimizdən daha aşağı nəticədir, əsasən də hər iki ölkənin qızğın ritorikasını nəzərə alsaq. İkincisi, hərbi əsirlərlə bağlı sualın nəticələrini (47%) şübhəli şəxs qismində saxlanılanlar (57%) və terrorçulara (66%) qarşı güc tətbiq edilməsi ilə bağlı sualların nəticələri ilə müqayisə etsək, iştirakçılar arasında hərbi əsirlərə qarşı şiddətin tətbiq edilməsini qəbuledilən sayanların sayı digər iki qrupa qarşı şiddəti qəbuledilən sayanlardan xeyli aşağıdır.

25 "Bu fikirlə razısınız və ya razı deyilsiniz: Polis tərəfindən şübhəli qismində saxlanılanlara güc/zor tətbiq edilməsi yol veriləndir."; Nümunə ölçüsü: 2586; "Bu fikirlə razısınız və ya razı deyilsiniz: Məlumat əldə etmək məqsədilə polis tərəfindən şübhəli terrorçulara güc/zor tətbiq edilməsi yol veriləndir."; Nümunə ölçüsü: 2495.

26 "Bu fikirlə razısınız və ya razı deyilsiniz: Polis və ya hərbi qulluqçu tərəfindən müharibə əsirlərinə güc/zor tətbiq edilməsi yol veriləndir."; Nümunə ölçüsü: 2634.

27 Nümunə ölçüsü: 2674

Ənənəvi ədliyyə institutlarına inamsızlıq

İştirakçılardan hüquqlarını müdafiə etmək üçün onların ən çox kimə güvəndiklərini soruşduğumuz sualın nəticəsinin iki nüansını nəzərdən keçirməyə dəyər.[28] Birincisi, qanuni olaraq təsis edilmiş institutlara (vəkillər və məhkəmələr) etibar edənlərin sayı son dərəcə aşağıdır. İştirakçıların 19%-i sualda təklif olunan heç bir qurum və ya instituta etibar etmədiyini, 19%-i vəkillərə, 16%-i isə məhkəmələrə güvəndiklərini deyiblər. Bu nəticə insanların ədliyyə sisteminə etibar etmədiklərini birmənalı şəkildə göstərir. Nəticənin ikinci maraqlı aspekti isə *alternativ ədalət xidməti* və ya *paralel ədalət sistemi*nin mövcudluğunu göstərir. İştirakçıların 16%-i Prezident Administrasiyasına, 13%-i polisə və daha 12%-i isə Heydər Əliyev Fonduna etibar etdiklərini bildiriblər.

Hüquqlarınız pozulduqda onların müdafiə edilməsini ən çox kimə etibar edərdiniz?



Bu nəticənin nədən qaynaqlandığını izah etmək üçün əlavə araşdırmaya ehtiyac olsa da, burada iki ehtimal ipucu ola bilər. Birincisi, avtoritar rejimlərdə vətəndaşların şikayətlərinə cavab vermək və ya həll etmək üçün dövlət qurumlarının və ya agenturalarının mövcudluğu yeni bir fenomen deyil. Avtoritar rejimlər əksər hallarda dövlət qurumları və ya agenturaları vasitəsilə vətəndaş şikayətlərinə cavab verməklə xalqın narazılığını idarə edir.[29] İkincisi, insanların polisə olan etibarını polisin insanların problemlərini həll etməsi üçün ən asan və ən tez yol olması ilə izah etmək olar. Çünki insanlar polisə rüşvət verə və problemlərini fərdi polis və ya polis idarəsi ilə həll edərək məhkəmə prosesindən yayına bilər, əsasən də işi məhkəmə prosesində itirmək ehtimalı varsa.

Sorğumuz insanların hüquq-mühafizə orqanları ilə qarşılaşdıqda hüquqlarını nə dərəcədə bildiklərini də ölçüb. İştirakçılara onların şübhəli şəxs qismində saxlanılma ssenarisini təsvir edən iki sual verdik. İlk sual iştirakçılardan onların dindirilmə zamanı bütün suallara dərhal cavab verməli olub-olmadıqlarını soruşub.[30] İkinci sual onların dövlət tərəfindən vəkillə təmin olunma haqqının olub-olmamasını soruşur.[31] İştirakçıların 38%-i birinci, 41%-i isə ikinci sualın cavabını bilmədiklərini deyiblər.

28 "Hüquqlarınız pozulduqda, onların müdafiə edilməsini ən çox kimə etibar edərdiniz?"; Nümunə ölçüsü: 2713.
29 Distelhorst and Hou, "Constituency Service under Nondemocratic Rule"; Chen, Pan, and Xu, "Sources of Authoritarian Responsiveness."
30 Nümunə ölçüsü: 1654
31 Nümunə ölçüsü: 1668

Alternativ informasiyaya çıxış

Sorğudakı suallardan biri iştirakçıların əsas informasiya mənbəyinin nə olduğu haqqındadır.[32] Cavablar göstərir ki, sosial media Azərbaycanda əsas məlumat mənbəyidir. İştirakçıların 50%-i əsas məlumatları sosial mediadan, yalnız 4%-i isə qəzet və radiodan aldıqlarını bildirib. Sorğu iştirakçılarının yalnız az bir hissəsi (10%) dövlət televiziyası olan AzTV-yə baxır. Radio və AzTV kimi daha ənənəvi media 65 yaşdan yuxarı olanlar, sosial media isə 25-34 yaş arasındakılar üçün ən populyar xəbər mənbəyidir.

Aşağıdakılardan hansı sizin əsas məlumat mənbəyinizdir?



Bu sualın nəticəsinin demoqrafik göstəriciləri xüsusilə təəccüblüdür. Bütün yaş qrupları üçün ən populyar xəbər mənbəyi sosial mediadır.[33] Bütün yaş qrupları arasında AzTV 65 yaşdan yuxarı iştirakçılar arasında ən populyardır. Lakin bu yaş qrupunun ancaq 21%-i əsas məlumat mənbəyi olaraq AzTV-ni seçib. Qadınlar sosial mediadan kişilərə nisbətən daha çox istifadə edir. Bütün kişi iştirakçıların yalnız 45%-i, qadın iştirakçıların isə 53%-i xəbərləri sosial mediadan əldə edir.[34] Sosial medianın bu cür populyarlığı bəzi siyasətçilərin Azərbaycanda sosial media platformalarının istifadəsi ilə bağlı narahatlığını izah edir. Sosial medianın, xüsusən də feysbukun istifadəsinə nəzarət etmək üçün bir neçə dəfə qızğın müzakirələr və cəhdlər olub.[35]

İfadə və düşüncə azadlığı

Sorğuda iştirakçılardan onların hansı mövzuları sosial media platformalarında, çox güman ki, müzakirə etmək istəmədikləri haqqında da soruşulub.[36] İştirakçıların 24%-i Prezidentin qərarlarını, 19%-i hakimiyyət özbaşınalığını və 16%-i mediadakı dezinformasiyanı sosial mediada ən az müzakirə edəcəkləri mövzular olaraq seçiblər.[37]

İştirakçıların 61%-i hər hansı bir dini, sosial və ya siyasi qrupa qoşulmaqda özünü azad hiss etdiyini və buna görə təqib təhlükəsinin olmadığını qeyd edib.[38] Bu sualın nəticəsi sorğunun əvvəlindəki iki sualın nəticəsinə oxşardır: "Razısınız və ya razı deyilsiniz: Azərbaycanda insan hüquqlarını lazımi dərəcədə qoruyan

32 "Aşağıdakılardan hansı sizin əsas məlumat mənbəyinizdir?"; Nümunə ölçüsü: 1520.
33 Nümunə ölçüsü: 1575
34 Nümunə ölçüsü: 736 and 784 sıralamaya uyğun olaraq.
35 Məsələn: https://iwpr.net/global-voices/azerbaijan-government-worried-facebook-activism; və ya bir azərbaycanlı deputatın Avropa Şurası Parlament Assambleyasında etdiyi çıxış: https://www.youtube.com/watch?v=KDcfUNZCW4
36 "Aşağıdakı mövzulardan hansını sosial şəbəkələrdə müzakirə etməkdən çəkinərdiniz?"; Nümunə ölçüsü: 4664.
37 Cavab variantları: "Məmurların/dövlət orqanlarının özbaşınalığı", "Kütləvi informasiya vasitələrində dezinformasiya (TV və mətbuat)", "İctimai xadimlərlə/fəallarla bağlı məhkəmələrin qərarları", "Nazirlərin qərarları və əməlləri", "Millət vəkillərinin qərarları və əməlləri", "Prezidentin qərarları və əməlləri", "Yuxarıdakıların heç biri".
38 "Doğru və ya səhvdir: Repressiya qorxusu olmadan istənilən dini, ictimai və ya siyasi qruplara qoşulmaqda azadam."; Nümunə ölçüsü: 2597.

qanunlar var" və "Razısınız və ya razı deyilsiniz: Azərbaycanda mənim insan haqlarım qorunur". Bu sualların hər üçündəki optimist nəticə həm də sorğunun başlanğıcındakı ilk suala ("Ümumiyyətlə, ölkəmiz doğru, yoxsa yanlış istiqamətə gedir?") verilən nikbin cavablara oxşardır. İqtisadi vəziyyəti, ümumilikdə, siyasi və mülki hüquqların məhdudluğunu, COVID-19 ilə əlaqədar gündəlik həyatda olan çətinlikləri nəzərə alsaq, bu nikbinliyin mənbəyini izah etmək çətindir. Ona görə də bu müsbət əhval-ruhiyyəni tam başa düşmək üçün ölkədəki ictimai rəyin bundan sonra da araşdırılması vacibdir.

Sorğu iştirakçılardan həm də müharibəyə etiraz edənlərin istintaqa cəlb olunmalı olub-olmadığı haqqında nə düşündüklərini də soruşub.[39] İştirakçıların 55%-i İkinci Qarabağ müharibəsinə etiraz edənlərin istintaqa cəlb olunmalı olduğuna inanır.[40] Bu nəticə təəccüblü olsa da, etirazlarla əlaqədar soruşduğumuz sualın nəticəsini təsdiqləyir: etiraz etmək arzuolunmazdır və insanların çoxu etirazçılara qarşı polisin güc tətbiq etməsinə və onlara qarşı qanunsuz tədbirlərin görülməsinə razıdır.

Vətəndaş fəallığı

Sonuncu Qarabağ müharibəsi həm döyüşlər ərəfəsində, həm də sonra vətəndaş fəallığında bir canlanma yaratdı.[41] "Aşağıdakı təşəbbüslərdən hansını daha çox dəstəkləyərdiniz?"[42] sualına iştirakçıların əksəriyyəti *yoxsulluq içində olan ailələr* (25%), *şəhid ailələri* (23%) və *orduya dəstək* (13%) cavab variantını seçiblər. Burada xüsusi vurğulanması lazım olan faktorlardan biri odur ki, yoxsul ailələr həm də çox vaxt müharibədə ailə başçısını itirmiş ailələr və ya müharibədə əmək qabiliyyətini itirmiş veteranların ailələridir. Bu sualda iştirakçıların yalnız 6%-i "hansısa bir müxalifət partiyasının və ya YAP-ın namizədi üçün siyasi kampaniyanı dəstəkləyərdi" cavab variantını seçib. Həddindən artıq aşağı olan bu faiz seçki sisteminə inamsızlığı göstərir.

Sözügedən sualı cavablandıran bütün iştirakçıların ancaq 12%-i, sualı cavablandıran kişilərin cəmi 8%-i, qadınların isə 17%-i *qadın hüquqlarının təşviq edilməsi təşəbbüsünü dəstəkləyərdim* variantını seçib.[43]

Bu təşəbbüslərdən hansını ən çox dəstəkləyərdiniz?



39 "Bu fikirlə razısınız və ya razı deyilsiniz: Müharibəyə qarşı etiraz edənlər mühakimə olunmalıdır." Nümunə ölçüsü: 3813.
40 Nümunə ölçüsü: 3402.
41 2020-ci il sentyabrın 27-dən noyabrın 10-na qədər.
42 Nümunə ölçüsü: 2263.
43 Nümunə ölçüsü: müvafiq olaraq 1142 and 1120.

İnsanların hansı səbəblərdən cəmiyyətdə vətəndaş kimi aktiv iştirakçı olmaq istədiklərini soruşduğumuz sualın nəticəsi müharibə dövründə vətəndaş iştirakının gücləndiyini bir daha təsdiqləyir. Sorğu iştirakçılarının 31%-i cəmiyyətdə vətəndaş kimi aktiv iştirakın *vətəndaşlıq borcu* olduğunu qeyd edib. Vətəndaşlığın insanlar üçün əhəmiyyətini başa düşmək üçün ona mədəni və tarixi kontekstdə yanaşmaq lazımdır. Azərbaycan dilində *vətən* sözündən əmələ gəlmiş *vətəndaşlıq* sözü həm də vətəni qorumaq borcunu və vətəni qoruyanlar qarşısında mənəvi borclu olmağı özündə təcəssüm etdirir.

Bu vətəndaş təşəbbüslərində nə üçün iştirak edirsiniz?



Soruşduğumuz başqa bir sual vətəni qorumağın vacibliyini bir daha qabarıq şəkildə göstərir. “Son bir ildə vətəndaş aktivliyiniz hansı sahədə olub” sualına cavabda iştirakçıların 20%-i keçən il orduya pul ianə etdiklərini bildiriblər.[44]

Ötən il aşağıdakılardan hansını ən azından bir dəfə etmisiniz?



44 Nümunə ölçüsü: 2061.

NƏTICƏ

Sorğunun nəticələri həm təcrübə, həm də nəzəriyyə üçün bəzi təkliflər verməyə imkan verir. Nəticə vətəndaş cəmiyyəti sahəsində aktiv olan fərdlər/təşkilatlar üçün gələcəkdə cəmiyyətin hansı sahələrinə diqqət yetirmələrini təklif edir. Alimlər üçün isə sorğunun nəticələri Azərbaycanda hələlik araşdırılmamış mövzuları müəyyənləşdirir. Lakin gələcəkdə əsas diqqət vətəndaş cəmiyyətinin inkişafının müşahidəsi olmalıdır. Aktiv vətəndaş cəmiyyətinin meydana gəlməsi hökumət üçün faydalı ola bilər. Yoxsulluğun aradan qaldırılması, şəhid və qazi ailələrinə dəstək verməyə yönəlmiş vətəndaş təşəbbüsləri dövləti ehtiyaclı vətəndaşlara yardım etmək öhdəliyindən azad edir.

Vətəndaş cəmiyyətinin aparıcı fərdləri və ya təşkilatlarına əsasən aşağıdakı məsələlər üzrə maarifləndirici kampaniyalara diqqət ayırmağı təklif edirik:

- İştirakçıların təxminən ⅓ hissəsi hüquq-mühafizə orqanları ilə qarşılaşdıqda nə etməli olduqları barədə hüquqlarını bilmirlər. Məsələn, saxlandıqları təqdirdə dövlət tərəfindən ödənilmiş vəkillə təmin olunma hüququnun olub-olmadığını soruşduqda iştirakçıların 40%-i suala *bilmirəm* deyə cavab verib. Eyni situasiyada vətəndaşın danışmamaq hüququnun olub-olmadığını soruşduqda iştirakçıların 35%-i sualın cavabını bilmədiklərini qeyd edib.
- Eynilə, iştirakçıların əksəriyyətinin şübhəli şəxs qismində saxlanılanlara, etirazçılara və terrorçulara qarşı polis tərəfindən zorakılıq/güc tətbiq edilməsini dəstəkləməsi vətəndaşların insan hüquqları ilə bağlı maarifləndirilməyə ehtiyacı olduğunu göstərir.
- Digər bir sahə məişət zorakılığı kontekstində qadın hüquqlarıdır. "Aşağıda təklif olunan qruplardan hansının insan haqları daha çox pozulur?" sualına iştirakçılar arasında ən çox seçilən cavab variantı *qadınlar* olub. Bu sahə yerli mədəniyyət və mentalitet baxımından həssas bir sahə olduğundan hər hansı bir xarici təşkilat ancaq yerli təşəbbüs qrupları və ya təşkilatlarla işləməlidir.

İnsanları daha effektiv şəkildə cəlb etmək və ünsiyyət qurmaq üçün aşağıdakılara diqqət etməyi təklif edirik:

- Təşkilatlar Azərbaycanda vətəndaş aktivliyinin arxasında duran motivləri anlamaqdan faydalana bilərlər. İştirakçıların 1/3-dən çoxu cəmiyyətdə aktiv vətəndaş kimi iştirakına əsas səbəbin xeyirxahlıq olduğunu, 14%-i bunun onların özlərini yaxşı hiss etməsinə kömək etdiyini, 12%-i cəmiyyətə dəstək olmaq istədiklərini və 10%-i isə özünü başqalarına nümunə göstərmək üçün etdiyini qeyd edib. Vətəndaş cəmiyyəti təşkilatları dəstək və könüllü cəlb etmək üçün həyata keçirdikləri təbliğat tədbirlərində bu motivlərə diqqət yetirə bilərlər.
- Sosial medianın populyarlığı vətəndaş cəmiyyəti üçün də faydalıdır, çünki sosial media, xüsusən də gənclər arasında ən populyar məlumat mənbəyidir. Ünsiyyət və təbliğat sosial media platformalarını hədəfə almaqla daha effektiv qurula bilər.

Sorğunun nəticələri akademik tədqiqat üçün bəzi mövzular da müəyyən edib.

- Nəticələr *paralel ədalət sistemi və ya seçiciyə xidmət*[45] fenomeninin mövcudluğunu və rolunu göstərir. İştirakçıların 16%-i Prezident Administrasiyasına, 13%-i polisə və daha 12%-i isə Heydər Əliyev Fonduna etibar etdiklərini qeyd edib. Bu qurumların niyə alternativ *problem həlledici* institut kimi mövcud olduğunu, necə fəaliyyət göstərdiklərini və Çin kimi digər

45 "Seçiciyə xidmət" ingiliscədən tərcümədə "constituent service" adlanan termindir. "Seçiciyə xidmət" demokratik ölkələrdə geniş yayılmış praktikadır və ən sadə formada desək, demokratik yolla seçilmiş nümayəndənin öz seçiciləri ilə müntəzəm görüşməsi, problemləri ilə maraqlanması və həll etməyə çalışmasıdır. Bu da həmin nümayəndənin növbəti seçkilərdə seçilmə şansını artırır və aid olduğu partiyanın mövqeyini həmin seçki dairəsində gücləndirir (tərc.).

avtoritar ölkələrin istifadə etdiyi oxşar qurumlardan necə fərqləndiyini izah etmək üçün dərin araşdırma aparmaq lazımdır.

- Daha maraqlı digər bir araşdırma mövzusu, aktiv vətəndaş cəmiyyətinin müharibədən sonrakı şəraitdə ehtiyaclı ailələrə köməyinin miqyasını və onun Azərbaycanın sosial rifah sisteminə necə təsir etdiyini öyrənməkdir. Dövlət ehtiyacı olan ailələrə kömək etmək üçün vətəndaş cəmiyyəti ilə əməkdaşlıq edəcəkmi? Əgər edəcəksə, hansı şərtlər altında?
- Nəhayət və ən başlıcası, müşahidə etdiyimiz aktiv vətəndaş cəmiyyəti nə dərəcədə başqa sahələrə də sirayət edəcək? Başqa sözlə, vətəndaş cəmiyyəti ehtiyaclı ailələri dəstəkləmək xaricində hansı sahələrdə aktiv olmaq istəyəcək?

MÜƏLLIF HAQQINDA

Zülfiyyə Əbdürəhimova-Karberri
Harvard Universitetindən Regionşünaslıq fakültəsinin məzunudur (2021). Hazırda Harvard Universitetində tədqiqatçıdır. Əsas tədqiqat sahələrinə demokratiyaya keçid, avtoritar rejimlər, vətəndaş cəmiyyəti, sosial rifah rejimləri daxildir və ixtitsas regionu keçmiş Sovet ölkələridir.

RIWI bir neçə əsas dəyərlər üzərində qurulmuşdur: azad düşüncə və seçim kimi dəyərləri inkişaf etdirmək üçün bütün fikirləri nəzərə almaq vacibdir və hər hansı bir yerdən gələn müxtəlif fikirlərin geniş toplusu müştərilərə proqnozlaşdırma və trendləri müəyyən etmək üçün kömək edir. Biz zaman keçdikcə, müntəzəm olaraq tam məxfiliyə söykənən sorğular və reklam testləri aparan qlobal Veb arxitekturası qurmuşuq.

180 Bloor Street West Ste 1000
Toronto, ON, M5S 2V6

101-887 Great Northern Way
Vancouver, BC, V5T 4T5

102 Cheyne Walk
Chelsea, London
SW10 0DQ, UK

https://riwi.com/
@RIWIdata
+1 888 505 RIWI (7494)